# Mühazirə - 17 *Ə. Mirzəzadə*

## Azərbaycan Xalq Cümhuriyyəti.

***Plan:***

**1.** *Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət.*
**2.***Azərbaycan Xalq Cümhuriyyətinin təşkili, yaradılması. Milli hökümətin daxili siyasəti.*
**3.***Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Paris sülh konfransı.*
**4.** *Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun tarixdə yeri.*
**5.** *1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. Ş.M.Xiyabani.*

***Ədəbiyyat:***


*1.Azərbaycan tarixi. 7 cilddə. IV c. Bakı, 2007.*
*2.Azərbaycan Xalq Cqmhuriyyəti Ensiklopediyası. I-II cildlər. Bakı, 2004-2005.*
*3.Nəcəfov. B. Azərbaycan Demokratik Respublikası.. Bakı, 1992.*
*4.Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti.Bakı,1990.*
*5.Məmmədova H. Azərbaycan Xalq Cümhuriyyəti dğvründə Yuxarı Qarabağ-da siyasi vəziyyət: erməni terrorizminin güclənməsi (1918-1920). Bakı,2006.*


### *1. Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyəti*

Xüsusi Zaqafqaziya (Cənubi Qafqaz) Komitəsi Rusiyada 1917-ci il oktyabr çevrilişi nəticəsində yaranmış sovet rejimini tanımadığına görə devrildi. Cənubi Qafqazı idarə etmək üçün noyabrın 15-də Cənubi Qafqazın hər üç millətinin iştirakı iiə Tiflisdə Y.P.Gegeçkorinin sədrlik etdiyi Zaqafqaziya Komissarlığı təşkil olundu.

Noyabr ayının 26-28-də Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdən sonra M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Milli fraksiyası yaradıldı.

1917-ci il dekabrın 5-də Zaqafqaziya (Cənubi Qafqaz) Komissarlığı ilə Türkiyə arasında imzalanmış Ərzincan müqaviləsi əsasında rus qoşunları Qafqaz cəbhəsindən geri çəkilməyə başladı. Cəbhədən qayıdan rus ordusu silah və sursatlarını ermənilərə, gürcülərə və Bakı bolşeviklərinə verdiyinə görə Azərbaycan fraksiyası hökumətdən tələb etdi ki, cəbhədən qayıdan əsgərlərin silahının bir qismi azərbaycanlılara verilsin. Bu məqsədlə Zaqafqaziya Komissarlığının qərarı ilə Şəmkir stansiyasında yerləşən rus polku tərk-silah edilməyə başlandı. Lakin rus əsgərləri müqavimət göstərdiyindən tərəflər arasında qarşıdurma baş verdi: hər iki tərəfdən
ölən və yaralananlar oldu.

Bolşeviklər Şəmkir hadisələrindən Bakıda milli qırğın törətmək və müsəlman əhalisini tərk-silah etmək üçün istifadə etdilər

1918-ci il fevralın 10-da Zaqafqaziya (Cənubi Qafqaz) Seymində 44 millət vəkili ilə təmsil olunan Azərbaycan fraksiyası yaradıldı. Onun rəhbəri M.Ə.Rəsulzadə idi.

Zaqafqaziya Seymi öz fəaliyyətinə Türkiyə ilə sülh danışıqlarının müzakirəsi ilə başladı.

Mart ayının 3-də Sovet Rusiyası Almaniya ilə Brest-Litovsk sülh müqaviləsini imzaladı. Müqavilənin şərtlərinə görə:

1) 1877-1878-ci illər rus - türk müharibəsinə qədərki sərhəd xətti bərpa edilməli idi;
2) Qars, Ərdəhan və Batum viayətləri Türkiyəyə verilməli idi;
3) rus əsgərləri türk ərazilərində və sərhəddə yerləşən erməni silahlı birləşmələrini tərk-silah etməli idilər

1918-ci il mart ayında fəaliyyətə başlayan və bir ay davam edən Trabzon konfransında Cənubi Qafqaz nümayəndə heyəti Brest-Litovsk müqaviləsinin Qafqaza aid olan maddələrinə etiraz etdi. Türkiyə hökuməti isə bu etiraza münasibətini bildirərək qeyd etdi ki, əgər Cənubi Qafqaz hökuməti müstəqil dövlət kimi tanınmaq istəyirsə, ilk növbədə Rusiyadan ayrıldığını rəsmən bildirməli və öz istiqlaliyyətini elan etməlidir

Aprelin 13-də Azərbaycan fraksiyasının etirazına baxmayaraq erməni və gürcü fraksiyasının

tələbi ilə Seym Türkiyə ilə müharibə haqqında qərar qəbul etdi. Bununla da Trabzon konfransı öz fəaliyyətini dayandırdı. Lakin son nəticədə Seym Türkiyənin tələbinə əsasən Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul etdi. Aprelin 22-də Cənubi Qafqaz müstəqil federativ respublika elan edildi.

1917-ci ilin sonlarında Bakı bolşevik-daşnak qrupunun yuvasına çevrilmişdi. Cənubi Qafqazın fövqəladə komissarı təyin edilmiş S.Şaumyanın və Qafqaz ordusunun Tiflisdə çağırılan II diyar qurultayında milliy- yətcə erməni olan Korqanovun başçılığı ilə yaradılan hərbi inqilab komitəsi Bakıya gəlmişdi. Eyni zamanda Ərzincan barışığına əsasən cəbhələrdən qayıdan 6 min rus, 8 min erməni əsgəri Bakıya toplanmışdı Bakı Sovetinin ixtiyarında əksəriyyəti erməni olan 20 minlik silahlı qüvvə var idi. Oktyabrın 31-də Bakı Sovetinin iclasında bolşeviklər hakimiyyəti öz əllərinə aldıqları barədə qətnamə qəbul etdilər. Noyabrın 7-də çağırılan Bakı Sovetinin konfransında Bakıda Sovet hakimiyyəti elan edildi. Əslində bu tədbirlə bolşeviklər Bakıda möhkəmlənməyə cəhd göstərdilər

**1918-ci il mart soyqırımı.**

Hələ 1917-ci ilin noyabr ayında Rusiya Müəssislər Məclisinə keçirilən seçkilər Müsavat Partiyasının nüfuzunun yüksək, bolşeviklərin sosial bazasının isə çox zəif olduğunu göstərdi. Müsavatın sosial bazasını məhv etmək, Azərbaycan milli hərəkatına divan tutmaq, başqa sözlə, müsəlmanlara "dərs vermək" üçün bolşeviklər milli qırğından istifadə etdilər. Bakı Sovetinin 1918-ci il martın 15-də keçirilən iclasında S.Şaumyan azərbaycanlıların soyqırımına göstəriş verdi.

Şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin tərk-silah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Qırğın ərəfəsində öz bitərəfliyini elan edən Daşnaksütyun Partiyası və erməni milli şurası bolşeviklərin tərəfinə keçdi.

Müsəlmanlara ilk atəş 1918-ci il martın 30-da saat 16:00-da erməni kilsəsinin yanında açıldı. Müsəlmanların guya İçərişəhərdə rusları qırması barədə ermənilərin fitvasına inanan rus matrosları da azərbaycanlılara qarşı çıxaraq onları atəşə tutdular Martın 31-də "Kərpicxana", "Məmmədli" və s. azərbaycanlı məhəllələrinə bolşevik-erməni hərbi dəstələrinin hücumları başladı.

Qeyri-bərabər döyüşdə soyqırıma məruz qalan müsəlmanlar martın 31-də müqaviməti dayandırdılar. Şəhərin dinc, silahsız müsəlman əhalisinə qanlı divan tutuldu. Aprelin 2-də gecə keçənədək minlərlə azərbaycanlı öldürüldü.

Mart soyqırımı nəticəsində təkcə Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirildi Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkəran qəzalarında da azərbaycanlı əhaliyə qanlı divan tutuldu. Şamaxıda daşnaklar 7 mindən artıq azərbaycanlını qətlə yetirmiş, 72 kəndi dağıtmışdılar

Quba qəzasında 162 kənd yandırılmışdı. Bolşevik-daşnak birləşmələri azərbaycanlılara məxsus ictimai binaları - məktəbləri, "Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını, "İsmailliyə" binasını yandırmış, "Tə- zəpir" məscidinin minarəsini top atəşinə tutmuşdular 1918-ci ilin sentyab- rınadək Bakı quberniyasında 20 mindən çox azərbaycanlı öldürülmüşdü. Ümumiyyətlə bu soyqırım zamanı Azərbaycanda 50 minə qədər azərbaycanlı qətlə yetirilmişdir.

Mart soyqırımı Bakı Sovetinin antiazərbaycan siyasətini xalqa göstərdi. Azərbaycan demokratiyasının muxtariyyətə olan ümidlərini qırdı və Azərbaycanda sovetləşmə ideyasına ağır zərbə vurdu.

Mart faciəsindən sonra bolşeviklər Bakıda siyasi hakimiyyətlərini möhkəmləndirmək üçün:

1) azərbaycanlılara məxsus bütün qəzet və jurnalları bağladılar;
2) şəhər təsərrüfatını Bakı Sovetinin - bolşeviklərin ixtiyarına keçirdilər;
3) aprelin 20-də Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Bakı şəhər Dumasını buraxdılar;
4) erməni milli şurasından başqa, bütün milli şuraların fəaliyyətini qadağan etdilər

1918-ci il aprelin 25-də Bakı Xalq Komissarları Soveti deyilən qurum yaradıldı. Əslində "Erməni sovet hökuməti" olan bu qurumun tərkibində cəmi üç azərbaycanlı var idi. Sovet Rusiyasının yeni müstəmləkəçilik siyasətini həyata keçirən S.Şaumyan XKS-ə sədrlik edirdi. Bakı XKS-nin rəhbərliyi Azərbaycanı Sovet Rusiyasının ayrılmaz tərkib hissəsi hesab edir, muxtariyyət ideyasının qəti əleyhinə çıxaraq bunu Azərbaycan millətçilərinin xam xəyalı sayırdı

Sovet Rusiyasının nümunəsində yeni sovet orqanlarının təşkilinə başlandı May ayında bütün köhnə hakimiyyət orqanları ləğv edildi. Fəhlə- kəndli milisi, şəhər, qəza, mahal xalq məhkəmələri yaradıldı, hərbi tribunal təsis olundu, fövqəladə komissiya yaradıldı
Bakı XKS-i sosialist tədbirləri adı altında neft sənayesini və Xəzər Ticarət Donanmasını milliləşdirdi.
Bolşeviklərin milliləşdirmə siyasəti nəticəsində 1918-ci ilin avqust ayinədək "qardaşlıq yardımı" adı ilə əvəzi ödənilmədən Azərbaycandan Sovet Rusiyasına 1 milyon 300 min ton neft və neft məhsulları göndərildi.
Bakını hərbi cəhətdən möhkəmləndirmək məqsədilə V.İ.Leninin göstərişi ilə şəhərə 4 zirehli avtomobil, 13 təyyarə və bir çox hərbi dəstələr göndərildi. 1918-ci ildə Bakı XKS əsgərlərinin sayı 18 min nəfərə çatdırıldı ki, bunların da 13 min nəfərə qədəri erməni idi.

***2. Azərbaycan Xalq Cümhuriyyətinin təşkili, yaradılması. Milli hökümətin daxili siyasəti.***
**Azərbaycan Cümhuriyyətinin yaradılması.**

1918-ci ilin yazında Cənubi Qafqaz hökumətinin Türkiyəyə müharibə elan etməsi və azərbaycanlıların mart soyqırımına məruz qalması Azərbaycan Cümhuriyyətinin yaranmasını zəruri etdi.
May ayının 26-da Gürcüstanın seymdən çıxmaq haqqında bəyanatından sonra Zaqafqaziya (Cənubi Qafqaz) Seymi özünün buraxıldığını elan etdi.
Mayın 27-də M.Ə.Rəsulzadə Azərbaycan fraksiyasının yaratdığı müvəqqəti Milli Şuranın sədri seçildi. Milli Şuranın 1918-ci il mayın 28-də Tiflisdə qəbul etdiyi "İstiqlaliyyət bəyannaməsi" ilə XIX əsrin əvvəllərində itirilmiş dövlətçiliyimiz Azərbaycan Cümhuriyyəti formasında bərpa olundu.

"İstiqlaliyyət bəyannaməsi"nin əsas müddəaları:

1. Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və şərq hissəsindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.
2. Müstəqil Azərbaycanın siyasi quruluş forması cümhuriyyətdir.
3. Azərbaycan Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri, xüsusən qonşu xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaqdır.
4. Azərbaycan Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlara tam vətəndaşlıq və siyasi hüquqlar verir.
5. Azərbaycan Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaqdır.
6. Məclisi-Müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır.

Elə həmin gün Fətəli xan Xoyskinin başçılığı ilə müvəqqəti hökumətin tərkibi təsdiq edildi. Fətəli xan Xoyski - Nazirlər Şurasnın sədri və daxili işlər naziri; Xosrovpaşa Sultanov-hərbi nazir; Məmməd Həsən Hacınski - xarici işlər naziri, Nəsib bəy Yusifbəyli - xalq maarifi və maliyyə naziri oldu.

May ayının 30-da müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında məlumat radioteleqrafla xarici dövlətlərin başçılarına bildirildi. Azərbaycan Cümhuriyyəti bütün müsəlman Şərqində ilk demokratik respublika oldu.

Azərbaycan Cümhuriyyəti 1918-ci il iyunun 4-də Türkiyə ilə Batumda sülh və dostluq haqqında müqavilə imzaladı. Bu müqavilə əsasında Türkiyə Azərbaycan Cümhuriyyətini müstəqil dövlət kimi tanıyan ilk xarici dövlət oldu. Müqavilənin 4-cü bəndinə əsasən Türkiyə Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürdü. İyun ayının əvvəlində Nuru paşanın rəhbərlik etdiyi "İslam ordusu" Gəncəyə gəldi.

Gürcüstan hökuməti türk ordusunun Gəncəyə gəlməsinin qarşısını ala bilmədiyindən Azərbaycan Milli Şurası və hökumətinin Gürcüstandan çıxmasını tələb etdi. İyunun 16-da Azərbaycan hökuməti və Milli Şurası Gürcüstandan Gəncəyə köçdü. Gəncəyə köçən hökuməti Nuru paşa tanımadığından tarixə "iyun böhranı" adı ilə daxil olan hökumət böhranı baş verdi. Qəbul edilən iki qətnamə (birinciyə görə - müvəqqəti hökumət altı ay müddətindən gec

-

olmayaraq Müəssislər Məclisini çağırmağa borclu idi, ikinciyə görə isə Milli Şura öz fəaliyyətini dayandıraraq bütün hakimiyyəti F.Xoyskinin rəhbərliyi ilə təşkil edilən hökumətə verir və ona tapşırır ki, öz hakimiyyətini yaxın vaxtlarda çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin) nəticəsində Milli Şuranın öz fəaliyyətini müvəqqəti olaraq dayandırması "iyun böhranı'nı aradan qaldırdı. Bununla da Azərbaycanın dövlət müstəqilliyi qorunub-saxlandı.

İyunun 17-də F. Xoyskinin rəhbərliyi ilə ikinci hökumət kabineti yaradıldı. Hökumətin qarşısında duran əsas vəzifə Bakını ermənilər və bolşeviklərdən ibarət düşmən qüvvədən azad etmək idi.

Azərbaycan Cümhuriyyəti yarandıqdan və Gəncəyə köçürüldükdən sonra Azərbaycanda ikihakimiyyətlilik yarandı.

1) Gəncədə Milli hökumət;

2)Bakıda bolşevik və daşnakların Xalq Komissarları Soveti. Bakı XKS milli hökuməti nəinki tanımadı, hətta ona qarşı müharibə elan etdi.

İyunun 6-da Bakı Sovetinin hərbi qüvvələrinin Gəncə üzərinə yürüşü haqqında əmr verildi. İyunun 10-da hücuma keçən Bakı Sovetinin 13 min nəfərlik hərbi qüvvələri iyunun 12-də Kürdəmiri işğal etdilər.

İyunun 27-dən iyulun 1-dək Göyçay istiqamətində gedən döyüşlərdə "İslam ordusu"nun döyüşçüləri Bakı Sovetinin qoşunlarını məğlubiyyətə uğradaraq geri çəkilməyə məcbur etdi. Bununla da XKS-nin Gəncəyə hücumunun qarşısı alındı.

İyulun 20-də hücuma keçən Azərbaycan-türk hərbi qüvvələri ayın sonunda Bakı ətrafına gəlib çıxdılar. Bu hücum XKS-nin işini çətinləşdirdi. Sovet Rusiyası nə hərbi, nə də diplomatik yardımları ilə Bakı Kommuna- sının süqutunun qarşısını ala bildi.

Eser, menşevik, daşnak liderləri Sovet Rusiyasının Bakıya heç bir yardım göstərmək iqtidarında olmadığını vurğulayaraq ingilis qoşunlarının Bakıya dəvət olunması, yeni koalision hökumətin təşkili barədə qətnamə qəbul etdilər. Bu hadisədən sonra, xüsusən Azərbaycan-türk ordusunun şiddətli hücumuna tab gətirməyən Bakı XKS iyulun 31-də öz səlahiyyətlərindən əl çəkdi.

Avqustun 1-də daşnak-eser, menşevik bloku Bakıda "Sentrokaspi diktaturası" adlı koalision hökumət təşkil etdi. Bu hökumətin dəvəti ilə min nəfərlik ingilis hərbi dəstəsi Xəzər dənizi vasitəsilə Bakıya gəldi. Lakin onlar yenə də Azərbaycan-türk ordusunun hücumunun qarşısını ala bilmədi.

Avqustun 14-də Həştərxana yola düşən Bakı komissarları müdafiə üçün zəruri olan ərzağı, silahı və hərbi sursatı aparmağa cəhd göstərdiklərinə görə fərarilikdə ittiham edilərək "Sentrokaspi diktaturası" tərəfindən həbs olundular

1918-ci il avqust ayının əvvəlində Bakının azad edilməsi uğrunda həlledici döyüşlər başlandı Erməni milli şurasının ciddi israrına baxmayaraq, ingilis generalı Denstervil şəhəri müdafiə etməyin qeyri-mümkünlüyünü görüb, sentyabrın 1-də öz əsgərlərini şəhərdən çıxarmağa başladı

Sovet Rusiyası Bakı neftinə sahib olmaq üçün 1918-ci il avqustun 27- də Almaniya ilə gizli saziş imzaladı. Bu sazişə görə, Almaniya Türkiyənin Bakıya daxil olmasına mane olmalı, bunun müqabilində Bakı neftinin 1/4 hissəsinə sahib olmalı idi.

Lakin sentyabr ayında beynəlxalq vəziyyətin dəyişməsi, Türkiyə və Azərbaycanın qəti mövqeyi nəticəsində Almaniya 27 avqust sazişindən əl çəkməyə məcbur oldu.

Sentyabrın 15-də Azərbaycan-türk ordusu həlledici hücuma keçərək Bakıya daxil oldu.

Sentyabrın 17-də Milli hökumət Gəncədən Bakıya köçdü. Bununla da Azərbaycan Cümhuriyyəti öz hakimiyyətini bütün respublika ərazisində bərqərar etdi.

**Azərbaycan Cümhuriyyətinin dövlət quruculuğu.**

Azərbaycan Cümhuriyyətinin dövlət quruluşu parla- mentli respublika idi. "İstiqlal Bəyannaməsi"nə görə, Azərbaycanda ali hakimiyyət xalqa məxsus idi.

Qanunverici hakimiyyət - parlamentə, icraedici hakimiyyət isə parlament qarşısında məsuliyyət daşıyan hökumətə məxsus idi.

Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanı ilə Azərbaycan (türk) dili dövlət dili

elan olundu. Bu qərarda iki il ərzində tədricən rus dilindən ana dilinə keçilməsi nəzərdə tutulurdu.
Hökumət fərmanı ilə iyununda üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks edilmiş qırmızı parçadan hazırlanan Azərbaycanın dövlət bayrağı qəbul edildi.

Noyabrın 9-da həmin bayraq göy, qırmızı, yaşıl rənglərdən ibarət, üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əksi olan üçrəngli bayraqla əvəz olundu.

1918-ci il iyunun 26-da Azərbaycan Milli ordusunun yaradılması haqqında fərman verildi 1918- ci il noyabrında yenidən toplaşan Milli Şura noyabrda "Azərbaycan parlamentinin yaradılması haqqında" qanun qəbul etdi. Qanuna əsasən, təkpalatalı parlament 120 nəfərdən ibarət olmalı idi. Respublika ərazisində yaşayan bütün xalqların, kişilərlə qadınların bərabər seçki hüququ qanunla təsbit olundu. Bu qanunla Azərbaycan Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə oldu.

1918- ci il dekabrın 7-də fəaliyyətə başlayan parlamentin sədri Əlimərdan bəy Topçubaşov, sədrin birinci müavini isə Həsən bəy Ağayev seçildi. Parlament müvəqqəti hökumətin istefasını qəbul etdi və dekabrın 26- da F. Xoyskinin rəhbərliyi ilə yeni hökumətin tərkibi elan olundu. İngilislərin təkidi ilə hökumətdə üç nazir vəzifəsi ruslara, iki yer ermənilərə təklif olundu. Lakin ermənilər bu təklifdən imtina etdilər

Yeni kabinetdə - Nazirlər Şurasının sədri və xarici işlər naziri - Fətəli xan Xoyski, daxili işlər naziri Xəlil bəy Xasməmmədov, xalq təhsili naziri - Nəsib bəy Yusifbəyli, hərbi nazir Səməd bəy Mehmandarov oldu.

Parlamentin qəbul etdiyi qanuna görə, rəsmi dövlət dili Azərbaycan dili elan olundu. Yelizavetpol şəhəri yenidən Gəncə, Qaryagin qəzası Cəbrayıl adlandırıldı.
Parlament ali dövlət nəzarətini həyata keçirən funksiyaya malik idi.

1919-cu il iyulun 21-də Azərbaycan Cümhuriyyətinin Parlamenti "Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə" qəbul etdi. "Əsasnamə"yə görə, seçkilər 1920-ci il aprelin 20-nə təyin edildi. Lakin beynəlxalq vəziyyətin dəyişməsi Müəssislər Məclisinə seçkilərin keçirilməsinə imkan vermədi.

1918- ci ilin avqust ayında Azərbaycan vətəndaşlığı haqqında fərman verildi.

1919- cu il oktyabrın 30-da qəbul edilən qərarla mətbuat üzərində senzura ləğv edildi.

**Sosial-iqtisadi tədbirlər.**

Azərbaycan Milli hökumətinin iqtisadi sahede ən mühüm tədbirləri sırasına iqtisadı dağınıqlığ,, ərzaq böhranını və möhtekirliyi aradan qaldırmaq daxil idi.
İqtisadi çətinlikləri aradan qaldırmaq üçün hökumət ilk növbədə asan, dakı tədbirləri həyata keçirdi:

1. 22 iyun 1918-cı ıl tarixli fərmanı ilə ərzaq məhsullarının xaricə daşınmasının qarşısın, almaq üçün iribuynuzlu mal-qaranın, taxılın və digər ərzaq məhsullarının ölkədən kənara çıxarılması qadağan edildi
2. 27 avqust1918-ci il tarixli fərmanı ilərespublika ərazisində azad ticarətə icazə verildi
3. Hökumətin 5 oktyabr 1918-ci II tarixli qərarı ilə Bakı XKS-nin neft sənayesi, ticarət donanması və neft sənayesi ilə əlaqədar olan diqər sənaye sahələrinin milliləşdirilməsi haqqında bütün dekret və fəmıanları ləğv edildi və həmin müəssisələr əvvəlki sahiblərinə qaytarıldı
4. 1918-ci il sentyabrın 10-da Bakı bonu adlı pul **vahidi** dövriyəyyə buraxıldı-1919-cu ildə Dövlət Bankı açıldı.
5. 1918-ci ilin 10 dekabrında neft ixracını artırmaq üçün neft və neft məhsullarının satışı üzrə büro yaradıldı.

Hökumətin gördüyü tədbirlər Bak, şəhərinin zəruri ərzaq məhsullar, ila təminatın, qismən yaxşılaşdırsa da, 1919-cu ilin yanvar - fevral aylarında əhalinin real əmək haqq, müharibədən əvvəlki dövrə nisbətən 20 faiz aşağı idi. Nəticədə mart ayında F.Xoyski hökuməti istefa verdi N. Yusifbəylinin rəhbərliyi ilə təşkil olunmuş yeni hökumət kabineti ərzaq, ticarət, maliyyə və nəqliyyatın inkişafına xüsusi diqqət yetirməyə başladı.
Hökumət 1919-cu ilin yayında neft ixracı ilə əlaqədar xarici şirkətlərlə ticarət müqaviləsi

bağladı.
1919- cu ildə Əmək Nazirliyi və Arbitraj yaradıldı.
Bu dövrdə əkinə yararlı torpaqların 30 faizi xəzinəyə, 50 faizi kəndlilərə, 20 faizi isə mülkədarlara məxsus idi. 1920-ci ilin martında aqrar sahə ilə bağlı qanun layihəsi müzakirə olundu. Bu layihədə kənd əhalisi üçün 7 desyatindən 50 desyatinədək, şəhər əhalisi üçün 1 desyatindən 12 desyatinədək torpaq verilməsi nəzərdə tutulurdu.
1920-ci ilin əvvəllərində respublikada artıq siyasi və iqtisadi sabitlik yaranmış, maliyyə vəziyyəti yaxşılaşmışdı. Azərbaycan Dövlət Bankı fəaliyyət göstərirdi. Neft sənayesi bərpa edilmişdi.
**Ordu quruculuğu.**
Azərbaycan Cümhuriyyəti yarandığı ilk dövrlərdə onun hərbi qüvvəsi 600 nəfərlik könüllü dəstədən ibarət idi. Qonşu respublikalara nisbətən milli zabit kadrları dəfələrlə az idi. Çünki çarizm dövründə müsəlmanlar orduya çağırılmır, əvəzində hərbi vergi alınırdı.
1918-ci il iyunun 19-da respublika ərazisində hərbi vəziyyət elan olundu. İyunun 26-da Milli Ordu yaradılması haqqında fərman verildi və ordu "Əlahiddə Azərbaycan korpusu" adlandırıldı.
İyulun 11-də respublikada hərbi səfərbərlik haqqında fərman verildi. Çağırışyaşlı bütün müsəlman vətəndaşlar hərbi qulluğa çağırıldı.
Noyabrın 1-də hərbi nazirlik yaradıldı. Baş nazir F.Xoyski hərbi nazir, general S.Mehmandarov onun müavini təyin edildi
1918- ci il dekabrın 25-26-da yeni təşkil edilən hökumətdə general S.Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski isə onun müavini təyin olundu.
Gəncədə açılan hərbi məktəb sonradan Bakıya köçürüldü. Batum müqaviləsinə görə, Nuru paşanın komandanlığı ilə Azərbaycana gəlmiş "İslam ordusu" milli hərbi kadrların yetişməsində böyük rol oynadı.
1919- cu il iyunun 11-də Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. Milli ordu Zəngəzura soxulmuş erməni quldur dəstələrinə, habelə bolşeviklərin 1919-cu ildə Muğanda yaratdıqları qondarma "Sovet respublikasının qüvvələrinə qarşı uğurlu əməliyyatlar apardı. 1919-cu ilin avqustunda Muğan sovet respublikası ləğv olundu. Lənkəran şəhəri azad edildi. 1920-ci ilin martında Qarabağda erməni qiyamı yatırıldı, Qazax qəzasına soxulmuş ermənilərin hücumları dəf edildi. Əsgəran və Qazaxda keçirilən hərbi əməliyyatlarda daşnak dəstələri darmadağın edildi. 1919- cu ilin yayında Azərbaycan Xəzər donanması yaradıldı.
Milli ordunun və hərbi donanmanın formalaşması prosesi 1920-ci ilin əvəllərində başa çatdırıldı. 40 min nəfərlik nizami ordu yaradıldı.
**Mədəni quruculuq.**
Azərbaycan Cümhuriyyəti öz qısa varlığı dövründə mədəniyyətin inkişafına qayğı ilə yanaşmış, mədəni quruculuğa xüsusi diqqət yetirmişdir
Milli hökumət bir sıra mədəni tədbirlər həyata keçirdi
1 Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Xalq Maarif Nazirliyi təsis edildi.
2. 1918-ci il avqustun 28-də məktəblər milliləşdirildi. Bütün ibtidai məktəblərdə təhsil ana (türk) dilində aparılırdı.
3. İbtidai sinif müəllimləri hazırlamaq üçün Bakı, Gəncə, Şuşa, Qazax, və s. şəhərlərdə xüsusi pedaqoji kurslar təşkil olundu. Bu kurslarda dərs demək üçün Türkiyədən 50 müəllim dəvət edildi.
4. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü.
5. "Nina" qız məktəbləri qız gimnaziyaları adlandırıldı habelə yeddi kişi gimnaziyası açıldı.
6. Azərbaycan (türk) dilində dərsliklər hazırlanması üçün komissiya təşkil olundu.
7 Bütün qəzalarda yaşlılar üçün Azərbaycan (türk) dilində axşam kursları təşkil olundu.
8. 1919-cu ildə Bakı Universiteti açıldı.
9. 100 nəfər azərbaycanlı gənc təhsil almaq üçün Avropa ölkələrinə - Türkiyə, Fransa, İtaliya, Rusiya və İngiltərəyə göndərildi.
Milli maarifin inkişafının qayğısına qalan böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Bakı Universitetinin açılmasına maddi yardım göstərmiş, xaricdə təhsil alan 20 tələbənin hər birinə 750 manat təqaüd vermişdi.

-

Əhali arasında türkçülük, azərbaycançılıq ideyalarını təbliğ etmək məqsədilə “Türk ocağı” cəmiyyəti yaradılmışdı.
1919-cu ildə Azərbaycanda:

- “Müsəlman Şərqini öyrənən” cəmiyyət təsis edildi;
- türk dilində ilk böyük kitabxana yaradıldı;
- Milli muzey (“İstiqlal” muzeyi) açıldı.

1920-ci ildə isə Maarif Nazirliyi nəzdində arxeologiya şöbəsi yaradıldı.
1918—1920-ci illərdə dövlətin rəsmi orqanı “Azərbaycan” qəzeti nəşr olunurdu.
Müstəqilliyin əldə edilməsi ziyalıların yaradıcılığına müsbət təsir göstərdi. Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq və başqaları milli ruhlu əsərlər yaratdılar.
Mailov qardaşlarının teatrı Maarif Nazirliyinin tabeliyinə verildi. Ceyhun və Üzeyir Hacıbəyli qardaşları teatr truppası yaratdılar Bakıda H.Ərəblinskinin rəhbərliyi altında Dövlət Teatrı fəaliyyətə başladı.
Bu dövrdə ilk rəssamlıq studiyası yaradıldı Studiyanın üzvü olan Bəhruz Kəngərli qaçqınlar mövzusuna aid rəsm qalereyası yaratdı.

**Erməni təcavüzünə qarşı mübarizə.**

Cənubi Qafqaz Seymi dağıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyənləşdirmək zərurəti yaranmışdı.
Erməni nümayəndəliyi Azərbaycan şəhəri olan İrəvanın Ermənistanın paytaxtına çevrilməsinə razılıq verilməsi üçün Azərbaycan hökumətinə müraciət etdi 1918-ci il may ayının 29-da Milli Şura uzun müzakirələrdən sonra güzəştə getdi. Batumda tərəflər arasında olan razılığa görə, İrəvan şəhəri ermənilərə o şərtlə güzəştə gedildi ki onlar Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəksinlər Tarix göstərdi ki, Azərbaycan Cümhuriyyəti ermənilərə güzəştə getməkdə səhvə yol vermişdi.
1918-ci ilin yayında Andranik 8 min nəfərlik hərbi qüvvə ilə Zəngəzura soxuldu. Daşnaklar Azərbaycanın digər bölgələrindən ayrı salınmış Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21 İrəvan quberniyasında 60-dan çox Azərbaycan kəndini dağıtdılar Andranikin dəstələrinin Zəngəzur və Qarabağda quldurluq hərəkətinin qarşısını almaq üçün 1919-cu ilin yanvarında Qarabağ general-qubernatorluğu yaradıldı. Xos- rovpaşa bəy Sultanov Qarabağ general-qubernatoru təyin edildi. Nəticədə Şuşanı tutmağa çalışan Andranikin quldur dəstələri darmadağın edildi. X.Sultanov erməni milli şurası üzvlərinin Azərbaycanı tərk etməsinə nail oldu. Avqust ayında Qarabağ erməniləri Azərbaycanın suverenliyini qəbul etməyə razılıq verdilər.

1918-ci il may - avqust aylarında Andranik 8 min nəfərlik silahlı dəstə ilə Naxçıvana soxulub, “etnik təmizləmə” adı ilə yerli əhalini vəhşicəsinə qətlə yetirdi. K.Qarabəkir paşanın başçılığı ilə türk ordusunun Naxçıvana daxil olması Andranikin vəhşiliklərinin qarşısını aldı.
Türkiyə Birinci dünya müharibəsində məğlub olduğuna görə noyabrın 1-də türk qoşunları Naxçıvanı tərk etdilər.
Ermənistan tərəfindən işğal təhlükəsi hələ qaldığına görə 1918-ci il noyabr ayında Naxçıvan bölgəsində Araz-Türk Respublikası yaradıldı. Ölkəni ermənilərdən müdafiə etmək üçün silahlı qüvvələr təşkil edildi.
1918- ci il noyabr ayından 1919-cu ilin mart ayınadək fəaliyyət göstərmiş Araz-Türk Respublikası bu bölgənin ermənilərin əlinə keçməsinə imkan vermədi, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.
Azərbaycan hökuməti Naxçıvanın müdafiəsini təmin etmək üçün
1919-cu ilin fevralında Naxçıvan general-qubernatorluğunu yaratdı. Bəhram xan Naxçıvanski general-qubernator təyin edildi.
1919- cu ilin may-iyul aylarında Naxçıvan bölgəsində ingilislərin iştirakı ilə yaradılan “erməni idarəçiliyi” yerli əhalinin ciddi müqaviməti nəticəsində iflasa uğradı, erməni qoşunları Naxçıvandan qaçmağa məcbur oldu.
1919- cu il noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında silahlı toqquşmanı

dayandırmaq, mübahisələri dinc yolla həll etmək haqqında saziş imzalandı. Lakin sazişin şərtlərini pozan ermənilər yenidən hücuma keçərək 50-dən çox Azərbaycan kəndini dağıtdılar.
1920- ci ilin fevral ayında Zəngəzurda qısamüddətli saziş əldə edildi.
Ərazi məsələlərinin qalib dövlətlərin köməyi ilə həll ediləcəyinə ümid
bəsləyən erməni rəhbərliyinin Paris sülh konfransında Türkiyənin yeddi vilayətinə, Azərbaycanın Zəngəzur və Naxçıvan bölgələrinə, Qarabağın dağlıq hissəsinə ərazi iddiaları Azərbaycan nümayəndəliyi tərəfindən qətiyyətlə rədd edildi və ermənilərin planları iflasa uğradı.

### 3. *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Paris sülh konfransı.*

**Xarici siyasət.** Azərbaycan Cümhuriyyətinin xarici siyasətinin əsas istiqamətini dövlət müstəqilliyinin beynəlxalq aləmdə tanınmasına nail olmaq, qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq təşkil edirdi. Azərbaycan diplomatiyasının ilk addımı 1918-ci il mayın sonunda respublikanın suverenliyinin elan edilməsi haqqında xarici dövlətlərə (ABŞ, Fransa, İngiltərə, Sovet Rusiyası, Türkiyə, Almaniya, İtaliya və s.) rəsmi məlumat verilməsi oldu.
1918- ci il iyunun 4-də Batumda Türkiyə ilə sülh və dostluq haqqında müqavilə imzalandı. Gürcüstan hökuməti ilə Zaqatala dairəsi ətrafında yaranan ərazi mübahisəsi dinc yolla həll edildi.
1919- cu il iyunun 16-da Denikin təhlükəsinə qarşı Azərbaycanla Gürcüstan arasında hərbi-müdafiə müqaviləsi bağlandı. Denikinlə sazişə girmiş Ermənistan hökuməti bu müqaviləyə qoşulmadı.

Ermənistanla sərhəd mübahisələrini dinc yolla nizama salmaq mümkün olmadı.
Milli hökumətin yeritdiyi ardıcıl xarici siyasət nəticəsində 1920-ci il martın 21-də İranla Azərbaycan arasında dostluq haqqında müqavilə imzalandı. İran bu müqavilə ilə Azərbaycanın müstəqilliyini de-yure (dövlət və ya hökuməti tam rəsmi tanıma) tanıdı .

Azərbaycan Cümhuriyyəti ilə Sovet Rusiyası arasında münasibətlər isə gərgin olaraq qalırdı. Bunun əsas səbəbi "böyük dövlətçilik" və hegemonluq mövqeyindən əl çəkməyən Sovet Rusiyasının keçmiş imperiyanın ərazisində yaradılmış yeni dövlətləri tanımaqdan imtina etməsi idi.

1918-ci il oktyabrın 30-da imzalanmış Mudros barışığına görə, Türkiyə ordusu Azərbaycanı tərk etməli, bir həftə ərzində Bakıdan, bir ay ərzində Cənubi Qafqazdan çıxarılmalı idi. Türk qoşunları Azərbaycanı tərk etdikdən sonra noyabrın 17-də general Tomson başda olmaqla ingilis qoşunları Bakıya daxil oldu.
Dəyişilmiş şəraitə uyğun olaraq Azərbaycan Milli Şurası öz fəaliyyətini bərpa etdi. 1918-ci il dekabrın 26-da yeni hökumət təşkil olundu. General Tomson dekabırın 28-də F.Xoyskinin rəhbərliyi ilə yaradılan yeni koalision hökuməti tanıdı.

Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları Azərbaycan Cümhuriyyətini devirmək məqsədilə 1919-cu ilin yanvarında L.Biçeraxov başda olmaqla Qafqaz-Xəzər dövləti yaratdılar. Azərbaycan hökuməti 1919-cu ilin fevralında müttəfiq dövlətlərin komandanlığına nota göndərərək L.Biçeraxovun qoşunlarının Bakıdan çıxarılmasını tələb etdi. Bir gün ərzində L.Biçeraxovun dəstəsi tərk-silah edilərək şəhərdən çıxarıldı.

**Beynəlxalq aləmdə tanınmaq uğrunda mübarizə.**

Yarandığı ilk gündən Azərbaycan Milli hökumətinin qarşısında duran əsas vəzifələrdən biri respublikanın beynəlxalq aləmdə tanınmasına nail olmaq idi.
1918-ci il dekabrın 28-də Ə.M.Topçubaşovun rəhbərliyi ilə Paris sülh konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibi təsdiq edildi.

Nümayəndə heyətinə aşağıdakı səlahiyyətlər verildi:

1) konfransda respublikanı təmsil etmək;
2) Azərbaycan Cümhuriyyətinin de-fakto (faktiki olaraq) tanınmasına nail olmaq;
3) Azərbaycanın milli mənafeyini, suverenliyini qorumaq və s.

1919-cu il yanvarın 8-də Azərbaycan nümayəndə heyəti İstanbuldan Parisə yola düşdü.
ABŞ prezidenti V Vilson Azərbaycan nümayəndəliyinin Paris konfransına buraxılmasının əleyhinə çıxdı.
Nümayəndə heyəti mayın 28-də görüş zamanı Azərbaycan Cümhuriyyətinin memorandumunu

-

ABŞ prezidenti V Vilsona təqdim etdi Danışıqlardan sonra ABŞ yerli şəraiti öyrənmək üçün Cənubi Qafqaza xüsusi nümayəndəsinin - polkovnik K.V.Haskelin göndərilməsini məqsədəuyğun hesab etdi

V.Haskel avqustun 29-da Bakıda apardığı danışıqlarda Qarabağ və Zəngəzurun Azərbaycana məxsus olduğunu bildirdi. O, Naxçıvan, Şərur və Dərələyəzdə ABŞ general-qubernatorluğu tərəfindən idarə olunan neytral zona yaradılmasını təklif etdi. Lakin Azərbaycan hökumətinin qəti mövqeyi və Naxçıvan əhalisinin ciddi müqaviməti bu planı puça çıxartdı

1919-cu il iyunun 12-də “Antanta” ölkələrinin Ali Şurası keçmiş çar zabiti Kolçakın Omsk hökumətinin tanınması və ona hərtərəfli yardım göstərilməsi barədə nota ilə çıxış etdi. Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikaları Paris sülh konfransına etiraz notası göndərdilər

1919-cu ilin payızında Kolçak və Denikinin Sovet Rusiyası tərəfindən məğlub edilməsi beynəlxalq vəziyyəti dəyişdirdi. 1920-ci il yanvarın 11- də Böyük Britaniyanın xarici işlər naziri lord Kerzonun təklifi ilə “Antan- ta”nın Ali Şurası Azərbaycan Cümhuriyyətinin müstəqilliyini de-fakto tanıdı. Bununla da Azərbaycan beynəlxalq hüququn subyektinə çevrildi.

***4. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun tarixdə yeri.***

**Aprel istilası.**Azərbaycanın istiqlaliyyəti de-fakto tanındıqdan sonra “Antanta” ölkələri Azərbaycana və Gürcüstana hərbi yardım edəcəklərinə söz verdilər F.Xoyski Azərbaycana 40-50 milyon manat kredit və humanitar yardım ayrılmasını xahiş etdi.

Belçika, İsveçrə, Hollandiya, Finlandiya Bakıda konsulluqlarını, İtaliya isə diplomatik nümayəndəliyini açdı. 1920-ci ilin əvvəlindən Bakıda Polşa konsulluğu fəaliyyətə başladı. Aprel işğalı ərəfəsində Bakıda 20-dən artıq diplomatik nümayəndəlik fəaliyyət göstərirdi.

Respublikanın daxilində iqtisadi və siyasi sabitlik əldə edilmişdi. Bütün bu nailiyyətlərə baxmayaraq ölkənin şimal sərhədlərində təhlükəli vəziyyət yaranmış, Denikinin ordusunu məğlubiyyətə uğradan sovet ordusu Azərbaycan sərhədlərinə yaxınlaşmışdı.

RSFSR xalq xarici işlər komissarı G.V.Çiçerin 1920 il yanvarın 2-də Azərbaycana nota göndərərək Denikinə qarşı müharibəyə qoşulmağı tələb etdi. Azərbaycan hökumətinin xarici işlər naziri F.Xoyski yanvarın 14- də cavab notası göndərərək bildirdi ki, vətəndaş müharibəsi Rusiyanın daxili işidir

Yanvarın 19-da “Antanta”nın Azərbaycana ordu yox, yalnız silah və hərbi sursat yardımı etmək haqqında qərarı ilə bağlı məlumat əldə edən Rusiya Azərbaycana diplomatik təzyiqi artırdı. Yanvarın 23-də G.V.Çiçerin Azərbaycana ikinci nota göndərdi Notada Azərbaycan hökumətinin Rusiyanın daxili işlərinə qarışmamaq mövqeyi Denikinlə mübarizədən imtina kimi qiymətləndirilirdi.

F.Xoyski yenə öz cavabında bildirdi ki, Sovet Rusiyası ilə Azərbaycan Cümhuriyyəti arasında bütün məsələlər yalnız Azərbaycanın dövlət müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınmasından sonra həll edilə bilər 1920-ci ilin martınadək göndərilən notalar respublikaya qarşı hazırlanan müdaxiləni pərdələmək məqsədi güdürdü.

Sovet Rusiyası Azərbaycana birbaşa hərbi müdaxilə etməyə cəsarət etmirdi. Buna görə də o, Azərbaycanın daxilində “beşinci kolon”un (dəstənin) yaradılmasına diqqəti artırdı. Bu məqsədlə Azərbaycan K(b)P-nin yaradılması qərara alındı.

1920-ci il fevralın 11-12-də Bakıda RK(b)P Bakı Komitəsinin, “Hümmət” və “Ədalət” təşkilatlarının birinci qurultayı keçirildi və kommunist təşkilatlarının Azərbaycan K(b)P adı altında birləşməsi barədə qərar qəbul olundu. AK(b)P əslində Azərbaycanın müstəqilliyinə qarşı təxribat işi aparmaq üçün Rusiyanın siyasətinin daşıyıcısı oldu.

Aprel işğalı ərəfəsində Azərbaycanda hökumət böhranı baş verdi. Par- tiyalararası çəkişmələr böhranı daha da dərinləşdirdi. Çəkişmələrin bir qütbündə müstəqilliyi qoruyub-saxlamağa meyilli olan Müsavat Partiyası, digər qütbündə kommunistlərlə birgə dövlət çevrilişi etməyə tərəfdar olan ittihadçılar dururdu.

Sovet Rusiyasına qarşı sərt xəttin tərəfdarı olan xarici işlər naziri F.Xoyski ilə güzəşt tərəfdarı

-

daxili işlər naziri M.Hacınski arasındakı çəkişmələr bu gərginliyi daha da artırırdı. 1920-ci il aprelin 1 -də N.Yusifbəy- linin hökumət kabineti istefa verdi. Yeni hökumət yaratmaq M.Hacınskiyə tapşırıldı. Lakin onun yeni hökumətin yaradılmasını ləngitməsi Azərbaycanda hökumət böhranını daha da dərinləşdirdi və son həddə çatdırdı.

Sovet Rusiyası milli hökuməti devirmək üçün diplomatik təzyiqlərlə yanaşı, bolşeviklərdən, ermənilərdən və türk amilindən də istifadə edirdi.

Martın 22-də Moskvanın razılığı ilə erməni hərbi dəstələri Xankəndində yerləşən qarnizona, Qazax, Gəncə qəzalarına basqın etdilər. Azərbaycan hökuməti məcbur qalıb, ordunu təcili Dağıstan sərhədindən və Bakıdan Qarabağda baş verən erməni qiyamını yatırmağa yönəltdi. Bununla da respublikanın şimal sərhədi müdafiəsiz qaldı.

Sovet Rusiyası təbliğat vasitəsilə Türkiyəni inandıra bildi ki, XI Qırmızı ordu Bakıdan keçərək "Antanta"ya qarşı vuruşan Türkiyənin yardımına gedəcək. XI Qırmızı ordunun tərkibindəki müsəlman hissələrinə Xəlil paşa və digər türk zabitləri başçılıq edirdi. A.İ.Mikoyan Bakı bolşevikləri adından XI Qırmızı ordunu Azərbaycana dəvət etdi. Aprelin 25-dən 26-na keçən gecə Levandovskinin başçılığı ilə XI Qırmızı ordu hissələri Azərbaycanın dövlət sərhədini keçdi. 2 saatlıq döyüşdə Azərbaycan hərbçiləri məğlub edildi.

XI Qırmızı ordunun sərhədi keçməsi hökumətdə çaşqınlıq yaratdı.

Aprelin 27-də saat 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında parlamentə ultimatum verdi. Həmin gün axşam saat 11-də Azərbaycan parlamentinin son iclası keçirildi. M.Ə.Rəsulzadə, Ş.Rüstəmbəyli və b.-nın kəskin etirazına baxmayaraq nahaq qan tökülməsinin qarşısını almaq məqsədilə aşağıdakı şərtlər daxilində hakimiyyətin Azərbaycan bolşeviklərinə verilməsi haqqında qərar qəbul edildi:

1. Azərbaycanın tam müstəqilliyi qorunub-saxlanılmalıdır
2. AK(b)P-nin yaratdığı hökumət müvəqqəti orqan olmalıdır.
3. Hökumət idarələrindəki qulluqçular tutduqları vəzifələrdə qalmalıdır
4. Hökumət və parlament üzvlərinin həyat və mülkiyyətinin toxunulmazlığı təmin edilməlidir.
5. Azərbaycandakı siyasi partiyaların sərbəst fəaliyyəti tam təmin edilməlidir
6. Azərbaycan ordusu saxlanılmalıdır.
7. Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Türkiyəninköməyinə getməlidir.

Lakin XI Qırmızı ordunun Bakıya daxil olması ilə Milli hökumətin varlığına son qoyuldu. Azərbaycan yenidən Rusiya tərəfindən işğal edildi.

Beləliklə, cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Cümhuriyyəti süqut etdi. Azərbaycan Cümhuriyyətinin süqutunun əsas səbəbləri:

1) beynəlxalq aləmdə və Qafqaz bölgəsində yaranmış ümumi hərbi-siyasi vəziyyət;
2) Azərbaycan hökumətinin daxilində yaranmış hakimiyyət böhranı, siyasi partiyaların hakimiyyət uğrunda mübarizəsi;
3) Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü;
4) XI Qırmızı ordunun Anadoluya, Türkiyənin yardımına getmək bəhanəsi ilə işğalda türk zabitlərinin nüfuzundan və gücündən istifadə etməsi,
5) Azərbaycan bolşeviklərinin timsalında "beşinci kolon"un pozuculuq fəaliyyəti;
6) Sovet Rusiyasının beynəlxalq hüquqa zidd olaraq Azərbaycanın ərazisini işğal etməsi və

### *5. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. Ş.M.Xiyabani.*

Xiyabaninin başçılıq etdiyi hərəkat tamamilə milli azadlıq və demokratiya uğrunda mübarizə səciyyəsi daşıyırdı. Tehran hökumətindən ***İranın respublika elan edilməsi və Cənubi Azərbaycana muxtariyyət verilməsi tələb olunurdu.***

**1920-ci il iyunun 23-də** ***Milli hökumət*** yaradıldı. Xiyabaninin başçılıq etdiyi Milli hökumət tam bir muxtar qurum kimi fəaliyyət göstərməyə başladı.

Milli hökumət Cənubi Azərbaycanda bir sıra mühüm islahatlar həyata keçirdi. Dövlətə məxsus torpaqların kəndlilər arasında bölünməsinə qərar verildi. Təbrizdə aztəminatlı ailələrin

-

uşaqları məktəblərə cəlb olundu. Bir neçə məktəbdə qızlar üçün siniflər açıldı. Məktəblərdə dərslərin doğma türk dilində aparılmasına başlandı. Təbrizdə xalça fabrikinin tikintisinə qərar verildi. Milli hökumət Təbriz şəhərinin əhalisindən yeni jandarm və polis dəstələri təşkil etdi. Milli qvardiya yaradıldı.

Şeyx Məhəmməd Xiyabani böyük arzularla yaşayırdı. Onun son məqsədi xalqımızın istiqlaliyyətə qovuşması idi. Ş.M.Xiyabani qurduğu yeni dövləti ***"Azadistan"*** (Azad ölkə) adlandırdı. Onun "Azərbaycan" adına və Şimali Azərbaycana ehtiyatla yanaşmasının səbəbi, AXC hökumətinin ingilislərlə sıx əməkdaşlıq etməsi idi. Aprel istilası nəticəsində yaradılmış Sovet Azərbaycanı isə Rusiyadan tam asılı idi. Bolşevik Rusiyasının Sovet Azərbaycanı vasitəsilə cənub torpaqlarımızı da ələ keçirtmək niyyəti ona bəlli idi.

Çox maraqlıdır ki, Təbrizdə Xiyabani ilə görüşən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında milli hökuməti "Azərbaycan Cümhuriyyəti" adlandırmışdı.

Şimali Azərbaycanda 1920-ci ilin yayında sovet rejiminə qarşı baş vermiş üsyanlar qan içərisində boğuldu. Bu, Xiyabaninin Şimali Azərbaycanın işğaldan qurtulacağına olan ümidlərini qırdı. O, bolşevik zülmündən Cənuba üz tutan azərbaycanlılara dərhal sığınacaq verdi. Onların içərisində Gəncə və Qarabağ üsyanlarında iştirak etmiş çoxlu sayda hərbçimiz də var idi.

Qacarlar hökuməti bu hərəkat vasitəsilə ölkəni demokratikləşdirmək üçün gözəl imkan qazandı. Lakin İngiltərədən tam asılı olan hökumət bu imkandan yararlanmadı. Qacarlar hökuməti bütün əksinqilabi qüvvələri səfərbər etdi. İngiltərə nümayəndələri ilə birlikdə hücum əməliyyatı hazırlandı. Komandanı rus olan şah kazak dəstəsi Təbrizə yeridildi. Milli hökumətin müdafiəçiləri qəhrəmanlıqla vuruşurdular. **1920-ci il sentyabrın 14-də** azadlıq hərəkatı yatırıldı. Milli hökumət süqut etdi. Şeyx Məhəmməd Xiyabani sona qədər igidliklə vuruşdu və Vətəni uğrunda şəhid oldu. Qacarlar hökumətinin təslim olarsa, onun bağışlanacağı təklifinə bu qəhrəman türk belə cavab vermişdi: "Mən ölməyi üstün tuturam və düşmənlərimin qarşısında diz çökmərəm. Mən məşrutə dövrünün övladıyam və ərəblərə baş əyməyən Babək Xürrəminin nəslindənəm". Beləliklə, milli azadlıq hərəkatı məğlubiyyətə uğradı. Cənubi Azərbaycan türkləri bu hərəkat zamanı ilk dəfə idi ki, muxtariyyət əldə etmək uğrunda mübarizə aparmışdılar.